# ABŞ Cənubi Qafqazda bulandırdığı suları duruldacaqmı?

Atalarımızın bir misalı var: "Dostunu mənə göstər, deyim sən kimsən". Gəlin baxaq görək düşmənimiz olan işğalçı Ermənistanın dostları kimlərdir. Birinci yerdə Fransadı, ikinci yerdə ABŞ, sonrakı yerlərdə isə bəzi Qərb ölkələridir.



Bu məsələdə biz onların işinə qarışmırıq. Çünki baxanda görürsən ki, Ermənistanın dostları tam dəqiqliyi ilə özünə oxşayır. Nə danışılası, nə də üzünə baxılasıdırlar.

Ermənistanın ən yaxın dostlarından olan Fransa və ABŞ keçmiş zamanlarda ATƏT-in Minsk qrupunun həmsədrləri kimi guya Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırdılar. Amma 28 il ərzində aparılan sülh danışıqları heç bir fayda vermədi. Bu illər ərzində Minsk qrupunun həmsədrlərindən heç biri Ermənistana "gözünün üstündə qaşın var" demədi. Təbiidir ki, danışıqlar uzanıb sonsuzluğa qədər gedə bilməzdi. Sülh danışıqları baş tutmayanda, işğalçı cəzalandırılmayanda isə müharibə qaçılmaz olur. Silahlar dilə gəlir, toplar gurlayır.

Yeni ərazilər işğal etmək həvəsinə düşən Ermənistan silahlı qüvvələri 27 sentyabr 2020-ci ildə mövqelərimiz üzərinə hücuma keçdilər. Torpaqlarını müdafiə etməyə, müstəqilliyini qorumağa, ərazi bütövlüyünü bərpa etməyə hazır olan güclü, qüdrətli Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşə atıldılar. Qısa müddət ərzində erməni işğalçılarının qarşısı alındı və Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatlarına başlandı. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bununla da, Cənubi Qafqazda yeni reallıqlar yarandı.

Bu gün Cənubi Qafqazın lider dövləti olan Azərbaycan şərtləri diktə edən tərəf kimi ikiüzlü, qərəzli siyasət yürüdən ABŞ başda olmaqla Qərb ölkələrinin hədəfinə çevrilib. İkinci Qarabağ müharibəsindən əvvəl ABŞ ATƏT-in Minsk qrupunun həmsədri kimi guya Qarabağa sülh gətirmək istəyirdi. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağı işğaldan azad edəndən, bölgədə sülh yaradandan sonra ABŞ-nin mövqeyi əks istiqamətə dəyişdi. Azərbaycan Cənubi Qafqazda yeni reallıqlar yaradandan sonra Amerikanın maskası götürüldü. Mövqeyini dəyişən ABŞ müxtəlif bəhanələr uyduraraq bölgədə duru suları bulandırmağa başladı. Özünə oxşayan Ermənistana maddi yardımlar göstərdi, müxtəlif dairələr də arxasında dayandı.

ABŞ-nin Ermənistanın yanında olması, onu dəstəkləməsi, əslində, bizim üçün təzə deyildi. Bunu ötən illər ərzində çox görmüşdük. Hələ Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin geniş vüsət aldığı 1992-ci ildə Xocalı soyqırımı ilə yanaşı, Qarabağda və Şərqi Zəngəzurda Azərbaycan xalqına qarşı kütləvi qırğınlar törədilərkən, ABŞ BMT Təhlükəsizlik Şurasının üzvü kimi Azərbaycan xalqına qarşı misilsiz qəddarlıqla həyata keçirilən vandallığın qarşısını almaq əvəzinə susmağa üstünlük verdi. Özünü əziyyətə salıb Ermənistanı bu qanlı əməllərinə görə heç yalandan da olsa qınamadı. Gözlərini açıb həqiqəti görmək istəmədi.

Aradan çox zaman keçib. Amma ABŞ-nin siyasətində heç bir dəyişiklik baş verməyib. Elə həminki qərəzli, ikiüzlü siyasət yürüdən Amerika olaraq qalıb. ABŞ-dən fərqli olaraq aradan keçən zaman ərzində Azərbaycan çox dəyişib, inkişaf edib, artıq 1992-ci ildəki Azərbaycan deyil. Arxada qalan illər ərzində ölkəmizin iqtisadi, hərbi gücü qat-qat artıb. Artan bu güc, bu qüvvət Azərbaycanı qüdrətli bir dövlətə, dünyada söz sahibinə çevirib. Ölkəmiz gücünü, qüdrətini həm İkinci Qarabağ müharibəsində, həm də uğurla həyata keçirdiyi antiterror tədbirlərində bütün dünyaya göstərib.

Okeanın o tayından gələn son zənglər, verilən açıqlamalar göstərir ki, deyəsən, ABŞ Azərbaycana qarşı tutduğu qərəzli mövqedən əl götürmək istəyir. Belə götürəndə bu, pis istək deyil. Amma əgər reallığa çevrilərsə. ABŞ Dövlət katibinin ermənipərəst mövqeyi ilə seçilən köməkçisi Ceyms O'Brayn özünün feysbuk hesabında yazıb ki, Azərbaycana və Rumıniyaya səfər etməkdən çox şaddır.

Bu ərəfədə ABŞ Dövlət Departamentinin Mətbuat xidmətinin rəhbəri Metyu Miller isə keçirdiyi ənənəvi brifinqdə bildirib: "Biz heç vaxt Azərbaycanla əməkdaşlığı davam etdirmirik deməmişik. Bu, Amerika Birləşmiş Ştatları olaraq bizim maraqlarımıza zidd olardı. Azərbaycan və Ermənistanla birbaşa danışıqlarımızı davam etdiririk. Biz həmçinin davamlı sülh əldə etmək üçün onlarla işləməyə davam edirik və bu, diqqətimizdə qalacaq".

Ümid edək ki, deyilənlər yalan olmayacaq. Axır ki, Amerika Azərbaycana qarşı tutduğu qərəzli mövqedən əl çəkəcək. Görəsən, ABŞ dediklərinin üstündə sonacan dayanıb Cənubi Qafqazda bulandırdığı suları duruldacaqmı?

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 7 dekabr, № 267.- S.12.